**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№308/5** **22 fevral 2019-cu il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin siyahısının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"a uyğun olaraq Keyfiyyətə nəzarət üzrə komitənin sədri V.Kərimov və Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri Y.Namazəliyev tərəfindən təqdim edilmiş Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin siyahısının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinin siyahısı aşağıdakı tərkibdə təsdiq edilsin:

| Sıra | Adı, soyadı, atasının adı | İcazənin nömrəsi | Təşkilat/sərbəst auditor |
|---|---|---|---|
| 1. | Aygün Saday qızı Səfərova | SA/333 | "Alfa-Audit" MMC-nin auditoru |
| 2. | Cavid Xəlil oğlu Xıdırbəyli | SA/424 | Sərbəst auditor |
| 3. | Elçin İbad oğlu Qurbanov | SA/355 | "VXA-Audit" MMC-nin direktoru, auditor |
| 4. | İlham İsfəndiyar oğlu Hacıəzizov | 072705 SA/258 | Sərbəst auditor |
| 5. | Xaləddin Cəlal oğlu Əliyev | 047441 SA/237 | Sərbəst auditor |
| 6. | Səməd Mahmud oğlu İsgəndərov | 072754 SA/207 | Sərbəst auditor |

2. Keyfiyyətə nəzarət üzrə komitənin müfəttişlərinə tapşırılsın ki, 2019-cu il ərzində auditor xidmətinin keyfiyyətinə nəzarətin yüksək obyektivlik və şəffaflıq şəraitində aparılmasını və sənədləşdirilməsini təmin etsinlər.

3. Keyfiyyətə nəzarət üzrə komitəyə (V.Kərimov) və Auditin keyfiyyətinə nəzarət şöbəsinə (Y.Namazəliyev) tapşırılsın ki, keyfiyyətə nəzarət üzrə yoxlamaların aparılmasını, müzakirələrini, qiymətləndirilməsini və ictimaiyyətə açıqlanmasını tələb olunan müddətlərdə və müvafiq prosedurlara uyğun olaraq təmin etsinlər.

4. Auditorlar Palatası Şurasının 2018-ci il 16 aprel tarixli 299/3 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

5. Palata sədrinin müşaviri F.Qarayevə və Xarici əlaqələr, beynəlxalq təşkilatlarla iş və ictimaiyyətlə əlaqə şöbəsinin müdir müavini F.Kamalovaya tapşırılsın ki, bir həftə müddətində bu qərarın mətninin azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palata sədrinin müavini** **Fəxrəddin İsmayılov**